# Yeniyetmələrdə milli xarakterin formalaşmasında ailə mühüm təsirli vasitə kimi

**Pərvin Əliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** pervin.eliyeva.1990@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözləri:** yeniyetmə, cəmiyyət, xarakter, milli xarakterin atributları, ailə tipləri, ailə, inteqrasiya, tərbiyədə vahidlik

**Ключевые слова:** юность, община, характер, атрибуты национального характера, семейные типы, семья, интеграция, единство в образовании

**Key words:** adolescence, community, character, attributes of national character, family types, family, integration, unity in education

Yeniyetməlik yaş dövrü əsasən 10-15 yaş dövrlərini əhatə edir. Yeniyetməlik yaş dövrü yalnız psixi və fiziki inkişafın müəyyən səviyyəsi ilə məhdudlaşmır. Bu dövrdə hər bir yeniyetmə yeni ictimai varlığa çevrilir, keyfiyyətcə yeni mühitə daxil olur. Cəmiyyətdə öz mövqeyinə şüurlu münasibəti formalaşır. Fərdin bir şəxsiyyət kimi formalaşmasını müxtəlif təsir proseslərindən kənarda götürmək mümkün deyil. İnsanın şəxsiyyət kimi inkişafı prosesinə həm bioloji, həm sosial amillər təsir göstərir. Bu baxımdan şəxsiyyətin formalaşmasını da bu cür təsirlərdən kənarda təsəvvür etmək mümkün deyil.

Müasir psixologiyada xarakter insanın fəaliyyət prosesində təşəkkül tapan və onun tipik həyat tərzində üzə çıxan fərdi-psixi keyfiyyətlərin məcmusu kimi götürülür. Xarakter əlamətləri içərisində bəziləri əsas, aparıcı əlamət kimi özünü göstərir və bütün kompleksin təzahürünün inkişafına istiqamət verir. Bunlarla yanaşı olaraq xarakterdə ikinci dərəcəli əlamətlər də mövcuddur ki, onlar bir halda əsas əlamətlərə tabe olur, onlarla şərtlənir, digər halda isə əsas əlamətlərlə uyğunlaşa bilmirlər. Xarakter əlamətləri bir çox dəyərlərdə, xüsusilə milli dəyərlərdə, milli münasibətlərdə, milli özünüdərkdə, milli münasibətlərdə özünü göstərə bilir. Bu baxımdan şəxsiyyətin münasibətlər sistemini və xarakter əlamətlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. İnsanın başqa adamlara: doğma və yaxın adamlara, təhsil və iş yoldaşlarına, tanıdığı və az tanıdığı adamlara münasibətdə ifadə olunan xarakter əlamətləri. Bunlara sədaqətlilik, prinsipiallıq və prinsipialsızlıq, ünsiyyətlilik və qapalılıq, doğruçuluq və yalançılıq, mərifətlilik və kobudluq, qayğıkeşlik və laqeydlik və s. aid etmək olar.
2. İnsanın özünün özünə münasibətini bildirən xarakter əlamətləri. Bunlara heysiyyət, öz gücünə inam və inamsızlıq, şöhrətpərəstlik, lovğalıq, təvazökarlıq, özü haqqında yüksək fikirdə olmaq və s. aid etmək olar.
3. Əməyə münasibətdə özünü göstərən xarakter əlamətləri. Bunlara vicdanlılıq, əməksevərlik, tənbəllilik, təşəbbüskarlıq, işə məsuliyyətli və məsuliyyətsiz münasibət, ciddilik və s. aid etmək olar.
4. İnsanın əşyalara münasibətini ifadə edən xarakter əlamətləri. Bunlara səliqəlilik və ya pintilik, əşyalara qayğılı və qayğısız münasibət və s. aid etmək olar.

İnsan yerinə yetirdiyi fəaliyyət prosesində müəyyən əməliyyatları yerinə yetirir, müəyyən

insanlarla qarşılıqlı münasibətdə olur, işini müvəffəqiyyətlə yerinə yetirmək üçün onların təcrübəsini öyrənir və öz təcrübəsini yeni nəslə öyrədir. Belə fəaliyyət prosesində insanın xarakterinin əsas əlamətləri üzə çıxır, inkişaf edib möhkəmlənir. İnsanın bütün həyatı boyu ideyası, əqidəsi, inamı, dünyagörüşü necə formalaşırsa, xarakter də elə formalaşır. İnsanın həyat tərzi necədirsə, xarakteri də elədir. İctimai mühit, insanın yaşayış tərzi, ailə həyatı, yetişdiyi mühit xarakterin formalaşmasında əsas rol oynayır. Xarakterin formalaşmasına mühüm təsir göstərən amillərdən biri də valideynlərdir. Müasir ailə tipləri, orada baş verən hadisələr də müxtəlifdir. Bəzi ailələrdə valideynlər arasında qarşılıqlı hörmət, güzəşt, qayğı, sosial-psixoloji münasibətlər istənilən səviyyədə olmur. Evdə yalan, rəzillik, əsəbilik şəraiti, qeyri-humanist hərəkətlər, ata və ananın bəzən dilimizə, adət-ənənələrimizə, əxlaqi dəyərlərimizə laqeydliyi yeniyetmələrdə milli xarakterin formalaşmasına mənfi təsir göstərir. Bəzən ana yaxud ata qeyri millətin nümayəndəsi olur. Belə ailələrdə də valideynlər ehtiyatlı olmalıdırlar. Ailədə atanın və yaxud ananın içkiyə, narkotik maddələrə qurşanması yeniyetmənin bu istiqamətdə inkişafına mənfi təsir göstərir.

Ailədə uşaqlar ilk vaxtlardan səbirli, insanpərvər, xeyirxah ruhda böyüməlidirlər. Əgər ata mütəmadi olaraq evdə dava salır, qadına qarşı zorakılıq göstərirsə uşaqların tərbiyəsinə laqeyd yanaşırsa indi həmin ailədən çıxan yeniyetmə də istənilən səviyyədə şəxsiyyət kimi formalaşa bilməz.

Hər hansı bir cəmiyyətin sosial-iqtisadi, ictimai, mənəvi-psixoloji inkişafı bu günün və gələcəyin ümid yeri olan gənclərin mənəvi, siyasi, psixoloji zənginliyindən, ağıl və düşüncəsindən, müstəqil mühakimə yürütməsindən, qorxmaz, mərd və mübarizəsindən çox asılıdır. Gənclər nə qədər xalqa, Vətənə sədaqət ruhunda tərbiyə olunsa ölkəmiz üçün bir o qədər yararlı gənclər yetişər. Qloballaşma dövründə yeni-yeni problemlər meydana çıxır. Gənclərimiz bu çətin və mürəkkəb situasiyadan baş çıxarmaq yolunu öyrənməli, ölkəmizin tarixinə, onun maddi-mənəvi dəyərlərinə bələd olmalıdırlar. Gənclərimiz bu yolla hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşa bilərlər (8, 9).

Gənc nəslin bir şəxsiyyət kimi formalaşması həmişə insanları düşündürmüşdür. Təlim-tərbiyəçilər, valideynlər, elm və maarif işçiləri bu prosesdə müxtəlif vasitələrdən istifadə etmiş və bu sahədə maraqlı tövsiyələr irəli sürmüşlər. Bildiyimiz kimi tərbiyənin əsasları ailədə qoyulur. Bu baxımdan uşaqlarda milli xarakter xüsusiyyətlərin inkişafı ilk öncə ailədən başlanır. Ailə daxilində tərbiyə xalqımıza xas olan etnik xüsusiyyətlər əsasında qurulmalıdır. Uşaqlar erkən yaşdan xalqımıza məxsus olan milli-mənəvi dəyərləri mənimsəməli, xalqımıza xas olan etnik stereotiplər əsasında formalaşmalıdır.

Ailə tərbiyəsindən əlavə məktəbəqədər və orta təhsil müəsissələrində uşaqların bu yönümdə tərbiyəsi vacib məsələdir. Təhsil müəsissələrində tərbiyə işi milli etnik dəyərlərimizə uyğun tərtib olunmalıdır.

Ailə şəxsiyyətin tərbiyəsi və inkişafının sosiomədəni mühitidir. Ailə insanın həyatında, formalaşmasında mühüm rol oynayır. Uşaq ailədə elə ilk gündən birgəyaşayış normalarını mənimsəyir, öz ailəsində olan yaxşını və pisi, ailəyə aid olan hər bir cəhəti götürür və artıq gələcəkdə uşaq ailəsində gördüklərini təkrar edərək, sosiallaşır. Uşaq burada dünyaya göz açır, böyüyür, oynayır, özünəməxsus fəaliyyət göstərir və bütün bunlar müəyyən xarakter əlamətlərinin əmələ gələrək inkişaf etməsinə təsir göstərir. Uşağın başqa psixi proses və xüsusiyyətləri kimi xarakteri də özünün ilk rüşeymlərini ailə həyatından alır.

Bəzən uşaqlar bir sıra xarakter əlamətləri etibarilə valideynlərinə oxşayırlar. Uşaq dünyaya gözlərini ailədə açır, adamlar arasında mövcud gerçək münasibətlərə ilk dəfə burada rast gəlir. Ailədə ata, ana və başqa yaşlılar arasında olan qarşılıqlı münasibət və rəftarlar,

şübhəsiz ki, ona qüvvətli təsir göstərir və onda yenicə yaranmağa başlayan hər hansı xarakter əlamətində müəyyən iz buraxır. Uşağın bu və ya digər xarakter əlamətinə görə valideyninə oxşamasının əsas səbəbini məhz burada axtarmaq lazımdır.

Ailə münasibətlərinin xüsusiyyətləri, ata-ananın şəxsi keyfiyyətləri, onların istifadə etdiyi tərbiyə üsulu, uşaqlara münasibəti, uşaqların əqli işlərində iştirakı və s. bütün bunlar uşaqlarda şəxsiyyətin inkişafına təsiri böyük rol oynayır. Azərbaycanlıların milli xüsusiyyətlərindən bəhs edən prof. Ə.Ə. Əlizadə ailəyə bağlılığı, valideynlərin uşaqları üçün əllərindən gələn, imkanları yetən hər şeyi etməyə hazır olduqlarını bildirir: "Azərbaycan ailəsinin bənzərsiz dəyərlərində uşaqların tutumlu yeri var. Evin bərəkəti ağsaqqalında, nuru körpəsindədir – deyib, ata-babalarımız. Ailənin affektiv mərkəzi uşaqlarla bağlıdır. Ana da onlar üçün yaşayır, ata da. Səni görüm övladından yarımayasan – el oba bu qarğışa dözmür, əlini göyə açıb qarğış edənə "dilin-ağzın qurusun", — deyirlər (8, 194).

Azərbaycanda yeniyetmələr bütün dünyada olduğu kimi Avropa dəyərlərinə, sadələşmiş amerikasayağı həyat tərzinə, kütləvi mədəniyyətə doğru meyillənir, milli mənəvi dəyərlər isə unudulur. Bir çox tədqiqatçılar göstərir ki, xalq yaradıcılığı, folklor nümunələrindən uşaqların tərbiyəsində istifadə etdikdə milli xüsusiyyətləri, milli xarakteri daha yaxşı mənimsəyirlər. Uşaq vaxtı doğma dilində uşağa layla çalınması həm uşaqların fiziki sağlamlığına, həm də mənəvi tərbiyəsinə müsbət təsir göstərir. Eyni zamanda uşaqların tərbiyəsinin daha düzgün təşkil edilməsi üçün valideynlərin özləri ilə pedaqoji maarif işini gücləndirmək lazımdır.

Yetişməkdə olan gənc nəslin hərtərəfli, ahəngdar inkişafı onlarda müvafiq bilik, bacarıq və vərdişlərin, yüksək mənəvi keyfiyyətlərin, elmi dünyagörüşün təşəkkülü, gənclərin potensial imkanlarından istifadə edilməsi müasir dövrdə qarşıda duran mühüm problemlərdəndir. Şəxsiyyət amilinə müstəsna əhəmiyyət verildiyi indiki şəraitdə yeniyetmələrin yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq kiçik yaşlardan vətənə məhəbbət, soykökə bağlılıq, milli özünü dərketmə qabiliyyəti, müstəqillik, mütəşəkkillik, işgüzarlıq və s. bu kimi xüsusiyyətlərin inkişaf etdirilməsinə dair məsələlərinə daha çox diqqət yetirilir.

Yeniyetmələrdə milli xarakterin formalaşdırılması bir çox hallarda onların yaşadıqları subyektiv məkanın xarakterindən asılı olur. Deməli, bu işdə ailənin rolu olduqca böyükdür. Yeniyetmənin xarakterinin formalaşmasında ətraf mühitin rolu çox böyük olsa da onun qarşılaşdığı ilk tərbiyəalma sistemi — ailədir. Makarenkoya görə, ilk öncə uşaq sağlam mühitdə doğulmalıdır. Yəni, ailənin özünün formalaşmış ailə normaları, ailə rolları olmalıdır.

Ata – ananın övlada münasibəti, öz aralarında və digər insanlarla davranışlarının uşaq tərəfindən qeydə alındığını və onun təmiz beyində fiksə olunduğunu (həkk olunduğunu) nəzərə almaq lazımdır. Valideynlərin hər birinin hərəkətini özlərinə örnək götürən uşaq onların bütün davranış tərzlərini mənimsəyir. Etdiyi bütün müsbət davranışların ilk öncə yaxın çevrəsi olan valideynləri, sonra da digərləri tərəfindən rəğbətlə qarşılandığını görən yeniyetmə, bu hərəkətləri təqdirəlayiq bilərək təkrarlamağa çalışacaq və nəticədə bu keyfiyyətlər onda vərdiş halına keçəcək. Ona görə də yeniyetmənin hər bir müsbət davranışına valideynin "əhsən", "afərin" deyə münasibət bildirməsi və dəstəkləməsi çox vacibdir. Əks hallar baş verdikdə çox danlayıb hər şeyi qadağan etməkdən də çəkinmək lazımdır.

Əgər ailədə övlad-valideyn münasibəti korlanıbsa, bu hökmən yeniyetmənin xarakterində, davranışında özünü büruzə verəcək. Ailədə cansıxıcı həyat keçirən yeniyetmə, yoldaşları ilə yola getmir, fikirli, tutqun gəzərək, tənhalığa can atır – bir sözlə, qapalı həyat keçirməyi üstün tutur. Valideynlər çox vaxt övladlarının reaksiyalarına diqqət yetirmədən əmr və göstəriş verməklə münasibət qurmağa çalışırlar. Bu zaman tənbeh, xəbərdarlıq, ittiham kimi ünsiyyətə

əngəl olan cəhətləri nəzərə almırlar. Belə vəziyyətdə övlad elə hiss edir ki, onu duymurlar, anlamırlar, ona qarşı laqeyddirlər. Bu qənaətlə də yaxınları ilə əlaqəni kəsir. Deyilən fikir həmişə nəzərdə tutulduğu kimi anlaşılmır. Tez-tez yalnış anlamalar ola bilir.

Münasibətin möhkəm olması üçün böyüklər təmənnasız sevgi, hörmət göstərməli, duyğusal olmalı və uşağı məhz uşaq kimi, yeniyetməni məhz yeniyetmə kimi, gənci məhz gənc kimi qəbul etməyi bacarmalıdırlar. O, özü haqqında mümkün qədər az danışısn, başqalarının xətrinə dəyən söz deməsin, yoldaşları ilə şit zarafat etməsin. Bundan əlavə o, evə qonaq gələndə ayağa dursun, başqa evə qonağ getdikdə əyləşməyə tələsməsin. Yaxud avtobusda, metroda, küçədə və ictimai yerlərdə ucadan danışmasın, başqlarına qayğıkeşlik göstərsin, salamlaşarkən artıq hərəkətlərə yol verməsin (böyüklə salamlaşarkən əl uzatmasın).

Xarakter tərbiyəsində nümunə mühüm rol oynayır. Çünki uşaq göz açarkən ətraf aləmi dərk edərkən birinci növbədə yaşlıların hərəkət və davranışlarını görür və ondan öyrənir. Yaşlıların nümunəsi həmişə insan həyatımda mühüm rol oynamışdır. Yeniyetmələrin milli xarakterinin formalaşmasına optimal şərait yaratmaq, onlarla işin müvəffəqiyyətlə aparılmasını təmin etmək üçün onları təbii şəkildə öyrənmək lazımdır.

**Məqalənin aktuallığı.** Hər bir xalqın, millətin spesifik milli xarakteri, adət-ənənələri, dəyərləri var. Yeniyetmələrdə milli xarakterin formalaşmasında bu kimi milli sərvətlərin əhəmiyyətli rolunun nəzərə alınaraq daha geniş araşdırılmasını məqalənin aktuallığı hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Şəxsiyyətin münasibətlər sistemini və xarakter əlamətlərini qruplaşdırılaraq təsnifatını verilməsini məqalənin elmi yeniliyi kimi dəyərləndirmək olar.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. M. Məhərrəmov. Məktəblilərin xarakterini tərbiyə etmək haqqında. Bakı, 1967.
2. Ə.T. Baxşəliyev. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011.
3. Əlizadə .Ə.Ə., Abbasov A.N. Ailə həyatının etika və psixologiyası: Dərs vəsaiti. Bakı, Maarif, 1989.
4. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2004.
5. Həmzəyev M.Ə. Yaş və Pedaqoji psixologiyanın əsasları. Bakı, 2000.
6. Əliyev R. Kiçik yaşlı məktəblilərdə cinsi fərqlər. Bakı, 1983.
7. Əliyev Piralı. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006.
8. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998.
9. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb, ictimaiyyətin və əmək kollektivlərinin əlbir fəaliyyətinin nəzəri əsasları: Ped.elm.dok. ...dis. Tbilisi, 1988, .
10. Baxşəliyev Ə.T. Psixologiya tarixi oçerkləri. Bakı: ADPU-nun nəşri, 2012.
11. M. Земска. Семья и личность. М.: Прогресс,1986.

**П. Алиева**

## Семья как основной влиятельный способ в формировании национального характера несовершеннолетних

## Резюме

Семья создает первоначальное представление о народе и нации. Семья также являяется воплощением национальных и духовных ценностей. Здоровая семья означает здоровое общество. Психологические исследования показывают, что трудно сформировать ребенка в возрасте полового созревания до родов. Особенности семейных отношений, личные качества родителей, методы их использования, отношение к детям, участие детей в умственном труде и т. д. Все это играет важную роль в развитии личности у детей. Наблюдения показывают, что подростки, которые глубоко осведомлены о национальных традициях и которые относятся к ней воспитании семьи, лучше знакомы с особенностями своего народа. В будущем они будут применять эти традиции в своих действиях и поведениях.

**P. Alieva**

## Family as important effective means in forming in juveniles of the national character

## Summary

The family creates an initial idea about the people and the nation. Family is also the embodiment of the national and spiritual values. A healthy family means a healthy society. Psychological researches show that it is difficult to form a child at the age of puberty before childbirth. Peculiarities of family relations, personal qualities of parents, methods of their use, attitudes towards children, participation of children in mental work, etc. all of these play a major role in the development of personality in children. Observations show that adolescents, who are deeply aware of national traditions and who refer to it in family rearing, are better acquainted with the characteristics of their people. In the future they will apply these traditions in their actions and behavior.

**Redaksiyaya daxil olub:** 24.01.2018